**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DƏRBƏND TARİXİ QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASININ AKTLARI ƏSASINDA

İxtisas: **5503.02 - Vətən tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Mahirə Əfsər qızı Əzizova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Ümumi tarix" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**Tofiq Teyyub oğlu Mustafazadə**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**Camal Mehdi oğlu Mustafayev**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Hacı Nuru oğlu Həsənov**

tarix üzrə fəlsəfə doktoru
**Asəf Adil oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının A. A. Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

____________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının Elmi katibi: tarix üzrə fəlsəfə doktoru,dosent

**İlqar Vahid oğlu Niftəliyev**

____________

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

____________ **Mais İsrail oğlu Əmrahov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqil Azərbaycan tarixşünaslığında sanballı elmi-nəzəri və faktiki bazaya söykənən “İtirilmiş torpaqlar” konsepsiyası çərçivəsində son dərəcə dəyərli araşdırmalar aparılmış, bütöv tədqiqat istiqamətləri formalaşmışdır. İstər Azərbaycan tarixinin dolğun mənzərəsini yaratmaq, istərsə də uzun illər boyu bəlli səbəblər üzündən diqqətdən kənarda qalan vilayətlərimizin, bölgələrimizin keçmişini “Vətən tarixi” kontekstində araşdırmaq, bu vilayətlərin tarixini obyektiv şəkildə hərtərəfli araşdırmaq baxımından böyük elmi və siyasi əhəmiyyətə malik istiqamətlərdən biri də beş min illik tarixi olan qədim Azərbaycan şəhəri Dərbənd və ətraf ərazilərin tarixinin öyrənilməsidir.

Dərbənd Azərbaycanın bəşər mədəni xəzinəsinə bəxş etdiyi unikal abidələrdən biri olmaqla yanaşı, Cənubi Qafqazın Rusiya tərəfindən işğalınadək ölkəmizin hərbi-siyasi, iqtisadi, sosial və mədəni həyatında aparıcı rol oynamışdır. Bu baxımdan Dərbəndin Rusiya işğalları ərəfəsindəki və sonrakı dövr tarixinin araşdırılması Vətən tarixşünaslığı üçün böyük aktuallıq kəsb edir.

Süni şəkildə Azərbaycandan qoparılmış ərazilərin tarixi uzun müddət milli tarixşünaslığımızda tədqiqat predmetinə çevrilməmişdir. Azərbaycan sovet tarixşünaslığında diqqətdən kənarda qalmış, daha doğrusu, süni şəkildə kənarlaşdırılmış Dərbənd və ətraf ərazilərin tarixi, yalnız onunla sıx bağlı olan məsələlərin araşdırılması zamanı fraqmental şəkildə tədqiqatlara cəlb olunmuşdur. Mövcud boşluqdan istifadə etməyə çalışan qonşu ölkə tədqiqatçıları isə Dərbənd və onun ətraf ərazilərinin tarixini Ümum-Azərbaycan kontekstindən deyil, mənsub olduqları dövlətin tarixi aspektindən araşdırmışdılar. Təbii ki, bu qəbildən olan tədqiqatlar tarixi gerçəkliklərin ziddinə olaraq,

Dərbənd bölgəsini tarixən mənsub olduğu Azərbaycanla əlaqədə deyil, daha fərqli etnosiyasi və etnososial mühit şəraitində aparılmışdır. Dərbəndlə bağlı imperiya dövründə rus şovinizminə, SSRİ dövründə isə sovet ideologiyasına əsaslanan tədqiqatlara yenidən nəzər salmaq, obyektiv gerçəkliyi aşkara çıxarmaq, Dərbəndin azərbaycançılıq aspektindən, böyük Azərbaycanın ayrılmaz parçası kimi öyrənmək müasir dövr milli tarixşünaslığımız qarşısında duran həlli vacib məsələlərdən biridir. Bu, həmçinin Azərbaycan tarixçilərinin üzərinə düşən mənəvi borcdur. Dərbəndin adı Azərbaycan türklərinin, eləcə də bütün türk dünyasının nəhəng ədəbi abidəsi olan Kitabi-Dədə Qorqud dastanında da çəkilir. "İtirilmiş torpaqlar" konsepsiyasının müəllifi, görkəmli Azərbaycan tarixçisi, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Y.M. Mahmudovun söylədiyi kimi, "*Dəmir Qapı bütün tarixi dövrlərdə oğuz türklərinin, o cümlədən Azərbaycan xalqının müqəddəs ziyarətgahı olmuşdur. Çünki oğuz türklərinin, o cümlədən Azərbaycan xalqının ulu babası olan Dədə Qorqud Dərbənd torpağında uyuyur*"[1].

Dərbəndin tarixinin araşdırılmasını aktual edən daha bir məqam – onun Azərbaycan tarixi ilə yanaşı, bütövlükdə Qafqaz tarixi üçün əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Bu gün Qafqaz bölgəsində hərbi və etnik qarşıdurmalar yaratmaq cəhdlərinin ara vermədiyi bir dövrdə bölgənin tarixinin obyektiv şəkildə araşdırılmasına böyük ehtiyac vardır. Təqdirəlayiq haldır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra itirilmiş torpaqların, o cümlədən Dərbənd və onun ətraf ərazilərinin tarixinin öyrənilməsi istiqamətində məqsədyönlü tədqiqatların aparılmasına başlanılmışdır. Bu tədqiqatlar obyektiv zərurətdən irəli gəlmişdir. Ötən əsrin 90-cı illərindən etibarən postsovet məkanında, eləcə də Şimali Qafqaz və Dağıstanda baş qaldıran

[1]Mahmudov Y.M. Dərbənd: tarixin qardaş xalqlara birlik əmanəti // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərlərinin Xüsusi buraxılışı, – 2012. №40, – s. 4

milli hərəkatlardan faydalanmağa çalışan millətçi-şovinistlər Dərbənd və onun ətraf ərazilərinin tarixini kobud şəkildə təhrif edən əsərlər nəşr etdirməyə, əzəli Azərbaycan torpaqlarını "özününküləşdirmək" istiqamətində məkrli niyyətlərini həyata keçirtməyə başlamışdılar. Əvvəlki dövrlərdən ibrət alıb, müasir dövrdə Azərbaycan tarixinə hədyanlar yağdıranlara vaxtında, elmi faktlara əsaslanan tutarlı cavab verilməsinin vacibliyi zərurəti də bu mövzunun tədqiqini zəruri edir.

Problemin öyrənilmə səviyyəsindən bəhs edərkən qeyd etmək lazımdır ki, Dərbənd və ətraf ərazilərin tarixinin tədqiqatçıları tərəfindən araşdırma zamanı, XIX əsr Qafqaz tarixinə dair əvəzsiz mənbə hesab olunan Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında toplanmış zəngin fakt və məlumatlardan geniş şəkildə yararlanmasını nəzərə alaraq problemin öyrənilmə səviyyəsindən bəhs edərkən həmin əsərlərin təhlili üzərində dayanmaq istərdik.

Dissertasiyanın tarixşünaslığından danışarkən A. Bakıxanovun başlıca əsəri olan ''Gülüstan-i İrəm''in adını xüsusi çəkməliyik[2]. Ilk mənbə kimi əvəzsiz dəyəri olan bu əsərdə Dərbənd xanlığı, onun sosial-iqtisadi vəziyyəti, Rusiya tərəfindən işğal edilməsi tarixi haqqında maraqlı məlumatlar verilmişdir.

Problemin tarixşünaslığından bəhs edərkən ilk növbədə Y.İ.Kozubskinin "Dərbənd şəhərinin tarixi" fundamental araşdırmasını[3] qeyd etmək lazımdır. Dərbənd xanlığının Rusiya tərəfindən işğalının 100 illiyinə həsr olunmuş bu əsərdə şəhərin qədim dövrlərdən XX əsrin əvvəllərinə qədərki tarixi araşdırılır. Kozubskinin bu əsərində bizim tədqiqat obyektimizin xronoloji çərçivəsinə daxil olan XVIII əsrin sonu – XIX əsrin 60-cı

---

[2]Бакиханов А.А. Гюлистан-и-Ирам / Ред., коммент., прим. и указ. акад. З.М. Буниятова. – Баку: Элм, – 1991. – 305с.

[3]Козубский Е.И. История города Дербента / Е.И.Козубский. – Темир-Хан-Шура: Изд. Русская типография, – 1906.– 648 с.

illərinə qədərki dövr tarixinin müxtəlif sahələri tədqiq olunur. Araşdırma zamanı bu əsərdən I Pyotrun və V. Zubovun Azərbaycana yürüşləri zamanı Dərbəndin rus qoşunları tərəfindən tutulmasına, xanlıq dönəmində Dərbəndin vəziyyətinə, Dərbəndin Rusiya tərəfindən işğalına, Şimal-Şərqi Azərbaycanda Şeyxəli xanın başçılığı altnda vüsət almış azadlıq mübarizəsinə, müridizm hərəkatı çərçivəsində bölgədə baş verən hadisələrə, habelə Dərbəndin idarəçiliyinə, siyasi və iqtisadi həyatına dair zəngin məlumatlar aşkarlanaraq, tədqiqata daxil edilmişdir. Bununla belə əsərin Rusiya böyük dövlətçilik ruhunda yazılması onun bir çox hadisələrə, o cümlədən Dərbəndin işğalına və Şeyxəli xanın başçılığı altında azadlıq hərəkatına qeyri-obyektiv münasibətini şərtləndirmişdir.

XIX əsr rus müəlliflərindən ilk növbədə N.F. Dubrovin[4], V.A. Potto[5], R.A. Fadeyev[6], A.L. Zisserman[7], A.L. Qizetti[8],

---

[4]Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе / Н.Ф.Дубровин. – Санкт Петербург: Тип. И.Н. Скороходова, – т. III.– 1886. – 550 с.; – т. IV.– 1886. – 536 с.; – т. V. – 1887. – 494 с.; – т. VI. – 1888. – 756 с.

[5]Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: (От древнейших времен до Ермолова) / В.А.Потто. – Санкт Петербург:Типография Е. Евдокимова, – т 1. – 1887.– 737 с.; Ермоловское время. СПб.: Типография Е. Евдокимова, – т 2. – 1887.– 780 с.; Время Паскевича. – вып. 1-й. – Тифлис: Типография Окружного Штаба Кавказского военного округа, – т. 5. – 1889.– 335 с.

[6]Фадеев Р.А. Шестьдесят лет Кавказской войны / Р.А.Фадеев. – Тифлис: Типография Главного штаба Кавказской Армии, – 1860.– 147 с.

[7]Зиссерман А.Л. Осада Бурной и Дербента Кази-Муллой в 1831 году // Русский Весник, – 1864. №12, – с.698-732.

[8]Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско- горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. / А.Л.Гизетти. –Тифлис: Издательство военно-исторического отдела при штабе Кавказского военного округа, –1901. – 222 с.

A.A. Bestujev-Marlinski[9] və başqalarının əsərlərini xüsusi qeyd etmək lazımdır.

Adları çəkilən müəlliflərin bir çoxunun, ələlxüsus N.F. Dubrovinin və V.A. Pottonun əsərləri böyük dövlətçilik ruhunda qələmə alınmışdır. Bu əsərlərdə rus silahı tərənnüm edilir, Rusiyanın işğalçılıq niyyətlərinə haqq qazandırılır. Lakin söylənilənlərlə yanaşı bu tədqiqatların yazılması zamanı çoxsaylı ilkin qaynaqlardan və tarixi ədəbiyyatdan istifadə olunması, hadisə və proseslərin təfərrüatına işıq salan külli miqdarda faktların dövriyyəyə daxil edilməsi sözügedən əsərlərin məziyyətlərindəndir. Bu əsərlərdə XVIII əsrin sonlarında regionda və konkret olaraq Dərbənd xanlığı daxilində və ətrafında cərəyan edən proseslər, Qafqazın Rusiya tərəfindən istilasının gedişi, Quba-Dərbənd bölgəsində Şeyxəli xanın başçılığı altında müqavimət hərəkatı və s. haqqında dəyərli bilgilər saxlanılır.

XVIII-XIX əsr Qafqaza dair tarixi ədəbiyyatda P.Q. Butkovun əsərləri[10] xüsusi əhəmiyyətə malikdir. Hadisələrin canlı şahidi və iştirakçısı olmuş P.Q. Butkovun əsərləri dövrün hərbi-siyasi proseslərinin inikası olması səbəbi ilə həm tarixşünaslıq, həm də mənbəşünaslıq önəminə malikdir. Butkovun "Materiallarının" 3-cü hissəsi isə ümumiyyətlə mənbə

---

[9]Бестужев-Марлинский А.А. Сочинения: в 2 томах / сост., подгот. Текста, встп. ст. и коммент. В.И.Кулешкова. –Москва:Издательство «Художественная литература»,–т. 2. –1981. – 522 с.

[10]Бутков П.Г. Выдержки из «Проекта о Персидской экспедиции в виде писем». 1796 г. История, география и этнография Дагестана XVIII - XIX вв.: Архивные материалы. / Под ред. М.О.Косвена и Х.-М.Хашаева. – Москва: Издательство Восточной Литературы, – 1958. – с. 200-208.; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. / П.Г.Бутков. – Санкт-Петербург: Тип. имп. АН, – ч 1.– 1869. – 548 с.; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. / П.Г.Бутков. – Санкт-Петербург: Тип. имп. АН, – ч 2. – 1869. – 602 с. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. / П.Г.Бутков. – Санкт-Петербург: Тип. имп. АН, – ч 3. – 1869. – 620 с.

səciyyəsi daşıyır, belə ki, gündəlik qeydləri və müxtəlif rəsmi sənədlərdən – qərarlardan, yazışmalardan, məktublardan çıxarışları təqdim edir.

Qazı Məhəmmədin Dərbənd yürüşünün şahidi olmuş Bestujev-Marlinski həmin vaxt Dərbəndin 7 gün davam etmiş mühasirəsi zamanı baş vermiş hadisələri günbəgün təsvir etmişdir. Zissermanın əsərində də bu yürüş barədə qiymətli məlumatlar verilmişdir.

Ayrı-ayrı hərbi hissələrin keçdiyi döyüş yolunun tarixinə həsr olunmuş əsərlər də tədqiq olunan problemin araşdırılmasında xüsusi əhəmiyyət kəsb edir. Həmin əsərlərdə Dərbənd bölgəsində baş vermiş döyüşlər təfərrüatı ilə verilmişdir[11].

Rusiya XİN Asiya departamentinin müdiri, V. Zubovun yürüşündə şəxsən iştirak etmiş S. Bronevskinin əsərində XVIII əsrin sonlarında Dərbəndin ərazisi, əhalisi, sakinlərinin məşğuliyyəti haqqında maraqlı məlumatlar ehtiva olunur[12].

Sovet dövrü tarixşünaslığında Dərbənd tarixinin öyrənilməsi bir növ Rusiya və Dağıstan alimlərinin məsuliyyət zonasına daxil idi. Bu da o anlama gəlirdi ki, Azərbaycan tədqiqatçıları müstəqil araşdırma obyekti kimi Dərbənd tarixini öyrənmək imkanlarından faktiki olaraq məhrum edilmişdilər. Ona görə də istər qədim, istər orta əsrlər, istərsə də XVIII

---

11Бобровский П.О.История 13-го лейб-гренадерского Эриванского его величества полка за 250 лет. 1642-1892 / П.О.Бобровский.– Санкт Петербург: Типография В.С.Балащева и К, – ч. 4. – 1895. – 532 с.; Богуславский Л.А. История Апшеронского полка. 1700-1892/Л.А. Богуславский. – Санкт Петербург: Типография министерства путей сообщения, –т. 1. –1892. –518 с.; Шабанов Д.Ф. История 13-го Лейб-гренадерского Эриванского Его Величества полка: (в 3-х частях) / Д.Ф.Шабанов. – Тифлис: Типография Окружного штаба Кавказского военного округа, – ч. 1.– 1871.– 220 с.

[12]Броневский С. Новейшие географические и исторические известия о Кавказе / С.Броневский. –Москва: Тип. С.Селивановского, – т. 2. – 1823. – 465 с.

yüzillik üzrə ixtisaslaşmış tarixçilərimiz Dərbənd tarixinin bu və ya digər süjetlərinə məntiqin zəruri etdiyi hallarda (məsələn, XVIII əsrin 60-80-ci illərində Şimal-şərqi Azərbaycan dövlətinin tədqiqində olduğu kimi) toxunurdular. Özü də heç bir əsərdə Dərbənd Azərbaycan şəhəri kimi göstərilmirdi. Bununla yanaşı, mövcud ideoloji izn çərçivəsində Azərbaycan tarixinin orta əsrlər dövrünə dair bir sıra monoqrafiyalarda[13] Dərbənd şəhərinin siyasi və iqtisadi həyatı haqqında dəyərli faktlar gətirilir.

V. Leviatovun monoqrafiyası[14] XVIII əsr Azərbaycan tarixinə dair ilk dolğun tədqiqat sayıla bilər. Bu tədqiqatda dövrün ideoloji vəziyyətinə uyğun olaraq, Azərbaycanın siyasi tarixi şərh olunur. Monoqrafiyada bəhs edilən dövrdə Şeyxəli xan və Dərbəndlə bağlı süjetlər işıqlandırılmışdır.

XVIII əsr tarixi üzrə bir sıra fundamental əsərlərin müəllifi H. Abdullayevin monoqrafiyaları[15] o dövrün tarixinin müxtəlif aspektlərinin öyrənilməsi baxımından əvəzsizdir. Həmin əsərlərdə Dərbənd tarixi də Şimal-Şərqi Azərbaycan dövlət qurumunun tərkibində işıqlandırılmışdır.

Bəhs etdiyimiz yüzilliyin bir başqa görkəmli tədqiqatçısının – F. Əliyevin əsərlərində[16] Dərbəndin Azərbaycan-Rusiya münasibətlərindəki yerinə dair, eləcə də

---

[13]Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında / N.M.Vəlixanlı. – Bakı: Elm, – 1974, – 220 s.

[14]Левиатов В.И. Очерки из истории Азербайджана в XVIII в. / В.И.Левиатов. – Баку: Изд-во АН Аз.ССР, – 1948.– 227с.

[15]Абдуллаев Г.Б. Азербайджан XVIII веко и взаимоотношения его с Россией / Г.Б.Абдуллаев.– Баку: Изд-во АН АССР, – 1965, – 621с.; Абдуллаев Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-80-х гг. XVIII в. / Г.Б.Абдуллаев. – Баку: Изд-во АН АССР, –1958. –211с.

[16]Алиев Ф.М. Азербайджано-русские отношения (XV-XIX вв) / Ф.М.Алиев. –Баку: Элм,–ч. 1. –1985. –173 с.; Алиев Ф. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII века / Ф.Алиев. –Баку: Элм, –1975. –231с.

XVIII əsrin I yarısında Dərbəndin siyasi tarixi ilə bağlı bir sıra maraqlı faktlara rast gəlinir.

C.M. Mustafayevin monoqrafiyasında[17] XVIII-XIX əsrlərin qovşağında Azərbaycanda cərəyan edən proseslər, Azərbaycanın Rusiya ilə münasibətlərinin çeşidli aspektləri təhlil olunmuşdur. Əsərdə 1796-cı ildə V. Zubovun yürüşü ətrafında baş verən hadisələr araşdırılır, Şeyxəli xanın siyasi manevrlərinə münasibət bildirilir.

Dərbəndin arxeoloji keçmişi, orta əsrlər tarixinin mühüm məsələləri A.A. Kudryavtsevin əsərlərində geniş araşdırılır[18]. A.A. Kudryavtsev Dərbəndin yaşını azaltmaq cəhdlərinə qarşı alim prinsipiallığı ilə mübarizə apararaq, onun 5 minillik tarixə malik olduğunu öz araşdırmaları ilə təsbit edir. Onun tədqiqatları bu unikal şəhərin inkişaf spesifikasını daha düzgün anlamaq baxımından böyük önəmə malikdir.

1960-80-ci illərdə işıq üzü görmüş əsərlərdə[19] həm ayrıca olaraq, həm də ümumi Dağıstan kontekstində Dərbəndin siyasi-ictimai və sosial-iqtisadi həyatının müxtəlif aspektləri araşdırılmışdır. Bu tədqiqatlar dövrün ideoloji istiqamət ruhunda olmaqla, Dağıstanın, o cümlədən Dərbəndin Rusiya tərəfindən işğalını müsbət nəticələrə gətirib çıxarmış birləşmə kimi qələmə verir.

---

[17] Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII - начало XIX вв.)–Баку: Элм, –1989. – 128 с

[18]Кудрявцев А.А. Древний Дербент / А.А.Кудрявцев. – Москва: Наука, – 1982.– 172 с.

[19]Гаджиев В.Г. Роль России в истории Дагестана / В.Г.Гаджиев.– Москва: Наука, – 1965. – 391с.; Джахиев Г. Россия и Дагестан в начале XIX века / Г.Джахиев. – Махачкала: Дагкнигоиздат, – 1985, – 95с.; Кажлаев А.Н. Возникновение и экономическое развитие Дербента / А.Н.Кажлаев. – Махачкала: Даг. кн. изд., – 1972.– 164 с.; Рамазанов Х.Х., Шихсаидов А.Р. Очерки истории Южного Дагестана: Материалы к истории народов Дагестана с древнейших времен до начала XX в. / Х.Х.Рамазанов, А.Р.Шихсаидов.– Махачкала: Типография ДФАН СССР, – 1964. – 278с.

Dərbənd tarixinin öyrənilməsində demək olar ki, bütün yaradıcılığını Dərbənd bölgəsi tarixinin müxtəlif sahələrinin tədqiqinə həsr etmiş Rusiya tarixçisi N.A. Məhəmmədovun əsərlərini[20] xüsusi olaraq qeyd etmək lazımdır. Onun Dərbənd bölgəsinin XVIII-XIX əsrin birinci yarısı dövr tarixinə həsr etdiyi əsərində Dərbənd bölgəsinin daxili və xarici siyasi durumu məsələləri, əhalinin başlıca məşğuliyyət sahələri araşdırılır. Onun əsərində verilmiş zəngin faktoloji material Dərbəndin nəinki Qafqaz əhəmiyyətli, hətta Xəzərin sahilində beynəlxalq ticarətin mərkəzi olduğunu göstərir. Qeyd etmək lazımdır ki, N.A.Məhəmmədovun əsərində Dərbənd Azərbaycan mədəni mühitinə daxil olan şəhər kimi verilməklə digər Rusiya tarixçilərindən fərqli olaraq onun əsəri bu mənada daha obyektiv yazılmışdır.

Uzun illər boyu mənsub olduğu Dağıstan azərbaycanlıların tarixi və etnoqrafik araşdırmaları ilə məşğul olan Səkinət Hacıyevanın monoqrafiyasında[21] Dərbənd bölgəsinə də toxunulmuşdur. Müəllif həm Dərbənd şəhəri və bölgəsinin etnik tarixinin bir sıra maraqlı və mübahisə doğuran məsələlərinə münasibət bildirmiş, həm də çağdaş Dağıstanın azərbaycanlı əhalisnin əsasən cəmləşdiyi Dərbəndin ənənəvi məşğuliyyət sahələrini, habelə maddi-mənəvi mədəniyyətini araşdırmışdır.

---

[20] Магомедов Н.А. Взаимоотношения народов Южного Дагестана и Азербайджана в XVIII-первой половине XIX вв. (экономический, политический и культурный аспекты) / Н.А.Магомедов.– Махачкала: Издательский дом «Эпоха», – 2004. – 192 с.; Магомедов Н.А. Дербент и Дербентское владение в XVIII - первой половине XIX вв. (Политическое положение и экономическое развитие) / Н.А.Магомедов. – Махачкала, – 1998. – 248 с.;Магомедов Н.А. Торговые обороты Дербента в первой половине XIX в. //Вестник института ИАЭ. – 2014. № 2, – с. 33–42

[21]Гаджиева С.Ш. Дагестанские азербайджанцы XIX – начало XX в. Историко-этнографическое исследование / С.Ш.Гаджиева. – Москва: Издательская фирма «Восточная литература» РАН, –1999. –359 с.

Dağıstan tədqiqatçısı R.A. Ağayevin dissertasiya işi[22] XVIII-XIX əsrin I yarısında Dərbəndin sosial-iqtisadi və siyasi inkişafına həsr olunsa da, daha çox iqtisadi və sosial aspektləri araşdırır. Müəllif ilk növbədə XVIII əsrə diqqət yetirir.

Dərbənd tarixçisi H.B.Hüseynovun 2005-ci ildə nəşr etdiyi "Dərbənd şəhərinin qısa ensiklopediyası" şəhər haqqında dəyərli məlumatlar təqdim edir[23]. Ensiklopediyada gedən məqalələr oxucularda Dərbəndin bir Azərbaycan şəhəri kimi əhəmiyyəti haqqında təsəvvür aşılayır.

Vətən tarixşünaslığında bu problemin öyrənilmə səviyyəsindən bəhs edərkən ilk növbədə Azərbaycanın xanlıqlar dövrü tarixinin görkəmli tədqiqatçısı, professor Tofiq Mustafazadənin əməyini xüsusilə qeyd etməliyik. Onun Vətənimizin XVIII-XIX əsrlər tarixinə həsr olunmuş monoqrafiyaları tarixşünaslığımızda əhəmiyyətli hadisəyə çevrilməklə[24], sözügedən dövrün müxtəlif problemlərinin, süjet xətlərinin sonrakı tədqiqatları üçün bünövrə rolunu oynamaqdadır. Onun zəngin mənbə və tarixi ədəbiyyata istinadla Azərbaycan-Rusiya və Osmanlı-Azərbaycan münasibətlərinə dair fundamental tədqiqatlarının, habelə Quba xanlığı haqqında dəyərli monoqrafiyasının bizim dissertasiya mövzumuzun daha dərindən və hərtərəfli araşdırılmasında böyük köməyi olmuşdur.

---

[22]Агаев Р.А. Социально-экономическое и политическое развитие Дербентского владения в XVIII – первой половине XIX в.: / Дис. ... канд. ист. наук / – Махачкала, –2005. –182 с.

[23]Гусейнов Г. Энциклопедия города Дербента / ред. кол. Ш. С. Ахмедов [и др.]. – Москва: [s.n.], – 2009. – 552 с.

[24]Mustafazadə T.T. Azərbaycan-Rusiya münasibətləri XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində / T.T. Mustafazadə. – Bakı: Şərq-Qərb, – 2013, – 528 s.; Mustafazadə T.T. Quba xanlığı / T. Mustafazadə. – Bakı: Elm, – 2005, – 480 s.; Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri / T.Mustafazadə. – Bakı: Elm, – 2002, – 372 s.

XX əsrin 90-cı illərindən etibarən Dərbənd tarixinin tədqiqində yeni dövr hesab etmək olar. Həmin vaxtlar sovet dövr ideoloji təsirindən azad olmuş müstəqil Vətən tarixşünaslığımızda Azərbaycanımızın bu qədim yurdu ilə bağlı yeni tədqiqatlar meydana gəlir.

G.N. Məmmədovanın monoqrafiyası[25] Azərbaycan tarixşünaslığında V. Zubovun yürüşü zamanı əsas toqquşmaların Dərbənd uğrunda döyüşlərlə bağlı olduğundan müəllif təbii ki, sözügedən bölgəyə, eləcə də Şeyxəli xana xüsusi diqqət ayırır.

F. Əsədovun 2004-cü ildə işıq üzü görmüş "Dərbənd xanlığı" tarixi oçerki[26] publisistik səpkidə yazılmış və əsərin mühüm hissəsini Dərbəndin tarixi keçmişinə səyahət təşkil edir. Müəllif Fətəli xan haqqında ətraflı söhbət açsa da, nədənsə Şeyxəli xan haqqında bir abzaslıq məlumatla kifayətlənmişdir.

S.Ə. İbişovun Quba xanlığının tarixinə həsr olunmş monoqrafiyasında[27] da bizi maraqlandıran problemlə bağlı kifayət qədər məlumat verilir. Bizim üçün daha çox əhəmiyyət kəsb edən monoqrafiyanın Şeyxəli xanın mücadiləsinə həsr olunmuş III fəslidir. Bu zaman müəllif qanunauyğun olaraq daha çox Qubada baş verən hadisələrə yer ayırır.

Müasir Azərbaycan tarixşünaslığında bilavasitə Dərbənd tarixinə həsr olunmuş tədqiqatlardan A.A. Hacıyevin əsərlərini qeyd etmək olar[28]. Onun Dərbənd bölgəsinin tarixi-

---

[25]Мамедова Г.Н. О походе Зубова в Азербайджан / Г.Н.Мамедова.– Баку: Элм,– 2003 – 94 с

[26]Əsədov F. Dərbənd xanlığı: (tarixi oçerk) / Red. M.Teymurov. – Bakı: Bakı Universiteti, – 2004, – 94 s.

[27]İbişov S. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi / S.İbişov.– Bakı: Elm, – 2012 –336 s.

[28]Hacıyev A.A. Dərbənd əhalisi XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat): / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2010. – 151 s.; Hacıyev A.A. Dərbənd XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat) / A.A.Hacıyev. – Bakı: Turxan NPB, – 2017. – 244 s.; Hacıyev A. XIX-XX əsrin əvvəllərində Azərbaycanın Dərbənd şəhərinin əhalisinin etnik tərkibi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına

demoqrafiyasına həsr olunmuş tədqiqatında, eləcə də bu problem üzrə nəşr etdirdiyi məqalələrində Dərbənd bölgə əhalisinin yerləşməsi, etnik tərkibi, məşğuliyyəti məsələləri araçdırılmışdır.

O. Nəzərəliyev Dərbənd xanlığına həsr etdiyi tədqiqatında[29] XVIII-XIX əsrin əvvəllərində Dərbəndin siyasi, sosial, iqtisadi tarixini əhatə etməyə çalışmış, bu zaman cərəyan edən proseslərə azərbaycançılıq prizmasından qiymət vermişdir.

S.İ. Əliyevanın monoqrafiyaları[30] həm qonşu və qardaş Azərbaycan və Dağıstan xalqlarının qədim ənənələrə malik əlaqələrini, həm hər iki diyarın son 300 ildə üzləşdiyi çağırışları, birgə çözməli olduğu problemləri, həm də bilavasitə bu ölkələrin kəsişən tarixini müqayisəli və kompleks şəkildə araşdırır.

Dissertasiyanın yazılması zamanı yeddicildlik "Azərbaycan tarixi"nin müvafiq dövrünə aid cildlərindən istifadə edilməsi də problemin konseptual istiqamətini müəyyən etmək baxımından bizə yardımçı olmuşdur.

Beləliklə, mövcud elmi ədəbiyyatın icmalı söyləməyə əsas verir ki, nəzərdə tutduğumuz xronoloji çərçivədə və strukturda Dərbənd bölgəsinin tarixini kompleks tədqiq edən əsər yoxdur. Bu baxımdan təqdim olunmuş dissertasiya bu boşluğu aradan qaldırmaq məqsədini güdür.

Tədqiq etdiyimiz problemlə birbaşa bağlı olan əsas mənbə bazasını tanınmış şərqşünas və Qafqazşünas A.P. Berjenin rəhbərliyi altında hazırlanmış Qafqaz Arxeoqrafiya

---

Tarix İnstitutunun Elmi Əsərlərinin Xüsusi buraxılışı, – 2012. № 40, – s. 265-274.

[29]Назаралиев О. К. Дербентское ханство. Дис. ... д-ра филос. по истории. / – Баку, 2014.– 173 с.

[30]Алиева С.И. Азербайджан и народы Северного Кавказа (XVIII – начало XXI вв.) / С.И.Алиева. –Баку: Издательский дом "Єərq-Qərb",– 2010. –620 с.; Алиева С.И. Взаимоотношения Азербайджана и народов Северного Кавказа (XIX – начало XX вв.) / С.И.Алиева. – Баку: ИПО Турхан, –2015.–456 с.

Komissiyasının Aktları (bundan sonra QAKA) təşkil edir[31]. Hər şeydən öncə belə bir həqiqəti vurğulamaq istərdik ki, Azərbaycanın XVIII əsrin sonlarından, yəni çarizmin ekspansionist siyasətinin orbitinə qəti şəkildə daxil olmasından etibarən tarixinin çeşidli aspektlərinin araşdırılması Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarına müraciət edilmədən dolğun sayıla bilməz. İlkin qaynaq səciyyəsi daşıyan bu aktlar çarizmin siyasətinin mahiyyətini, həmin siyasətin doğurduğu nəticələri kifayət qədər dərindən öyrənməyə, təhlil etməyə imkan verir.

Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarından əldə olunmuş sənədlərdə çarizmin Azərbaycanda, ələlxüsus da Dərbənd bölgəsinə münasibətdə yürütdüyü müstəmləkəçilik siyasətinə, bu siyasət çərçivəsində həyata keçirdiyi müstəmləkəçi tədbirlərinə, Şeyxəli xanın başçılığı altında uzun müddət davam etmiş azadlıq mübarizəsinə, müridizmin təsiri ilə bu bölgədə baş vermiş üsyan və çıxışlar, o cümlədən Dərbənd bölgəsinin böyük hissəsini bürümüş 1843-cü il Tərəkəmə üsyanı, bu üsyanın yatırılmasından sonra Qafqaz komandanlığı tərəfindən həyata keçirilmiş sərt cəza tədbirləri, eləcə də Dərbənd bölgəsində gömrük işinin təşkili, ayrı-ayrı təsərrüfat sahələrinin durumu, iqtisadi həyatda baş vermiş yeniliklər ilə bağlı olduqca dəyərli faktlar ehtiva olunur.

Nəşr edilmiş sənədlərdən 1940-cı ildə işıq üzü görmüş "Материалы по истории Дагестана и Чечни" ("Dağıstan və Çeçenistanın tarixinə dair materiallar") sənədlər toplusunun III

---

[31]Акты, собранные Кавказской археографической комиссией. В 12-ти тт.–Тифлис: Типография Главного Управления Наместника Кавказского, –тт. 1-12. –1866-1904.

cildinin I hissəsində[32] XIX əsrin əvvəllərində Dərbəndin daxili və xarici siyasi vəziyyəti ilə bağlı maraqlı sənədlər var.

Tanınmış Dağıstan alimi V. Hacıyevin redaktəsi altında çıxmış sənədlər toplusuna[33] XVIII-XIX əsrin əvvəllərində Rusiya-Dağıstan münasibətlərinə dair Moskva, Peterburq, Tbilisi, Mahaçqala arxivlərində aşkar edilmiş dəyərli materiallar daxil edilmişdir. Topluda Dərbəndlə bağlı sənədlər də yer almışdır.

Dissertasiya mövzusu üzərində tədqiqat apararkən bu problemlə bağlı məlumat verən qaynaq və tarixi ədəbiyyatdan, arxiv sənədlərindən informasiya əldə etməklə yanaşı, onlar ciddi şəkildə araşdırılmış, təhlil edilmiş, sənədlərin obyektiv gerçəkliyi nə dərəcədə əks etdirdiyi digər mənbələrdəki məlumatlarla müqaisə edilmişdir. Lakin bununla bərabər qeyd etmək lazımdır ki, bu problem daim öz aktuallığını saxlayır.

**Tədqiqatın obyekti və predmeti.** Rusiya işğalı ərəfəsi, gedişi və işğaldan sonrakı dövrdə Dərbənd bölgəsinin siyasi-iqtisadi və sosial həyatının Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında əksi seçilmiş tədqiqat mövzusunun obyektini təşkil edir.

Tədqiqatın predmeti Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının verdiyi məlumatlar əsasında Dərbənd bölgəsinin Azərbaycan tarixində yerinin müəyyən edilməsi, Rusiyanın Cənubi Qafqaza ekspansiyası ərəfəsi və gedişində Dərbəndin siyasi durumu, Şeyxəli xanın başçılığı altında bütövlükdə Şimal-Şərqi Azərbaycanı bürümüş azadlıq hərəkatının öyrənilməsi, Dərbənd bölgəsinin müridizm hərəkatında iştirakının araşdırılmasıdır.

---

[32]Материалы по истории Дагестана и Чечни: [в 3 томах] т. 3, ч. 1:1801-1839 / Под ред. Р. Магомедова. – Махачкала: Дагестанское Государственное Издательство, – т. 3. – 1940.– 471 с.

[33] Русско-дагестанские отношения в XVIII - начале XIX в.: Сборник документов. / Отв. ред. В.Г.Гаджиев. – Москва: Наука, – 1988.– 357с.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Qafqaz Arxeoqrafiya Komissiyasının aktları əsasında XVIII əsrin sonlarından XIX əsrin 60-cı illərinədək Dərbənd və ətraf ərazilərin tarixinin müxtəlif süjet xətlərini tədqiq edərək Dərbəndin bu dövr tarixinin kompleks mənzərəsini yaratmaqdır.

Bu məqsədə uyğun olaraq tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Azərbaycan tarixində Dərbənd bölgəsinin yerini açıb göstərmək;
- XVIII əsrdə Rusiya İmperiyasının işğalçılıq planlarında Dərbənd bölgəsinin yerini müəyyən etmək;
- Rusların Xəzərsahili vilayətlərə yürüşlərində Dərbəndlə bağlı hərbi-siyasi mübarizənin mahiyyətini göstərmək;
- Quba-Dərbənd xanlığının Rusiya ilə münasibətlərində Dərbənd amilinə aydınlıq gətirmək;
- V.Zubovun başçılığı ilə rus qoşunlarının təcavüzünə qarşı Dərbənd əhalisinin müqavimətini araşdırmaq;
- XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Rusiya – Qacarlar İranı qarşıdurması kontekstində Cənubi Qafqazda, o cümlədən Quba-Dərbənd xanlığında yaranmış ictimai-siyasi vəziyyətini təhlil etmək;
- Dərbəndin Rusiya tərəfindən işğalına yeni baxışdan yanaşmaq;
- Şeyxəli xanın başçılığı altında azadlıq hərəkatını Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları əsasında təhlil etmək;
- Müridizm hərəkatında və ona qarşı aparılan mübarizədə Dərbəndin rolunu müəyyənləşdirmək;
- Dərbənddə inzibati idarəçilik sisteminin müstəmləkəçilik mahiyyətini açıqlamaq;
- Rusiya İmperiyası tərkibində Dərbəndin əhali tarixini araşdırmaq;
- Bəhs olunan dövrdə Dərbənd bölgəsinin sosial və iqtisadi həyatının dinamikasını öyrənmək.

**Tədqiqat metodları.** Dissertasiyanın tədqiqi zamanı seçilmiş tarixi müqayisəli təhlil metodu qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas kimi götürülmüşdür.

Çar Rusiyasının Cənubi Qafqaz, eləcə də Azərbaycanla bağlı işğalçılıq siyasətinin müəyyən edilməsi zamanı əldə edilən sənədlər, mövcud elmi ədəbiyyat araşdırılaraq müqayisəli təhlil edilmiş və elmi-məntiqi nəticələr çıxarılmışdır. Bu araşdırmalar nəticəsində əldə edilən məntiqi nəticələr, onların təhlili çar Rusiyasının Cənubi Qafqaza münasibətdəkı işğalçılıq siyasəti və Dərbənd bölgəsi əhalisinin inadlı müqaviməti və mübarizəsi məsələlərinə ətraflı işıq salmaq imkanı vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan dissertasiyanın başlıca müddəaları aşağıdakılardan ibarətdir:

1. Qədim dövrlərdən Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının mühüm mərkəzlərindən biri olmuş Dərbənd bölgəsinin etnosiyasi taleyi, onun çoxminillik həyat salnaməsi Azərbaycan diyarı ilə, onun dövlətçilik tarixi ilə qırılmaz bağlarla əlaqəli olmuş, bu şəhər Fətəli xanın yaratdığı Şimal-Şərqi Azərbaycan dövlətinin iki paytaxtından birinə çevrilmişdi;
2. Tədqiq olunan dövrdə Dərbənd bölgəsi cənub istiqamətində işğalçılıq siyasətini həyata keçirməyə başlayan çar Rusiyası ilə region uğrunda mübarizə aparan iri güclərin rəqabət meydanına çevrilirdi;
3. Rusiyanın Dərbənd uğrunda əməliyyatları Qudoviçin Xəzəryanı sahillərinə general-mayor İ.D. Savelyevin başçılığı altında hərbi dəstə göndərməsi ilə başlamaqla nəticədə Dərbənd qısa müddət ərzində iki dəfə – 1796-cı ildə və 1806-cı ildə rus komandanlığının əməliyyat hədəfinə çevrilmişdi;
4. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində yaranmış mürəkkəb şəraitdə Azərbaycanda və Dağıstanda müstəmləkəçilik əleyhinə mübarizənin mühüm isimlərindən olan Şeyxəli xanın azadlıq uğrunda fəaliyyəti başlayır. Həmin

vaxtı isti dənizlərə çıxmaq uğrunda mübarizə aparan Rusiyanın böyük geosiyasi və hərbi-strateji əhəmiyyətə malik olan regionun artıq birbaşa istilasına başlaması, imperiyaya qarşı mübarizəni çətinləşdirən əsas amillərdən idi;

5. Qeyd etmək lazımdır ki, 1806-1811-ci illərdə intensiv partizan-reyd səciyyəli savaş, sonrakı illərdə isə diversiya xarakterli hərbi aktlar şəklində davam etmiş Şeyxəli xan hərəkatı 1817-ci ildə başlamış Qafqaz müharibəsinin sələfi kimi çıxış etmişdir. Quba kimi Dərbənd bölgəsi də Şeyxəli xan hərəkatının əsas mərkəzlərindən birinə çevrilmişdi;

6. Çar Rusiyasının Qafqazı işğalının gedişində yerlərdə həyata keçirdiyi repressiv tədbirlər XIX əsrin 20-ci illərindən başlayaraq Qafqazda müridizmin bayrağı altında azadlıq hərəkatı yeni mərhələsinə səbəb olur. Sufi şeyxi Şirvanlı İsmayıl Əfəndinin banisi olduğu Qafqaz müridizmi azərbaycanlı əhali arasında da geniş yayılmış, Dərbənd bölgəsi də bu hərəkatın mərkəzlərindən biri kimi çıxış etmişdi;

7. Dərbənd bölgəsinin strateji əhəmiyyətini yaxşı anlayan müridizm rəhbərləri onu ələ keçirmək üçün ciddi səy göstərmişdilər. Dağlıların ilk imamı Qazı Məhəmmədin 1831-ci il Dərbənd qalasına olmuş yürüşü həm bölgə əhalisini çarizmə qarşı üsyana qaldırmaq, həm də rusları bu strateji əhəmiyyətli mövqedən məhrum etmək məqsədi daşıyırdı;

8. XIX əsrin 40-cı illərin əvvəllərindən müridlərin bu hərəkatın Mərkəzi və Cənubi Dağıstana da yayılması məqsədilə xüsusilə fəallaşması müşahidə olunur. Belə vəziyyət Dərbənd ətrafındakı azərbaycanlı kəndləri əhatə etməklə, bilavasitə şəhər üçün ciddi təhlükə törətmiş kütləvi xalq hərəkatına, Tərəkəmə üsyanına səbəb olur;

9. Türkiyə və Qacar İranı ilə müharibənin başa çatmasından sonra Cənubi Qafqaz əyalətlərində vətəndaş-mülki idarəçiliyin təşkili məsələsi gündəmə gəlir. Dərbənd bölgəsinin idarəçiliyinin ümumrusiya idarə sisteminə uyğunlaşdırılması məqsədilə bir-sıra əsasnamələr verilmişdir;

10. Hələ orta əsrlərdən şərqlə qərb arasındakı tranzit ticarətdə mühüm rol oynayan mərkəzlərdən biri olmuş Dərbənddə mühüm ticarət limanı kimi gömrük-karantin işinin təşkil olunması ilə bağlı Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarında geniş məlumat verilir;

11. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında yer almış materiallar Rusiya hakimiyyəti dövründə Dərbəndin sosial-iqtisadi həyatında baş vermiş ciddi dəyişiklikləri də izləməyə imkan verir.

**Tədqiqatın elmi yeniliyi.** Bu günədək sistemli şəkildə tədqiqatlara cəlb edilməmiş Qafqaz Arxeoqrafiya Komissiyasının aktları əsasında Dərbənd və ətraf ərazilərin tarixinin kompleks tədqiqi işin əsas elmi yeniliyini təşkil edir. Tədqiqat üzərində işləyərkən əldə edilmiş sənədlərin verdiyi məlumatlar, eləcə də tarixi ədəbiyyat və müxtəlif mənbə materialları bizə bu problemi ətraflı tədqiq etməyə imkan vermişdir. Həmin materialların təhlili bizə aşağıda sadalananları dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

- Şeyxəli xanın başçılığı altında Şimal-Şərqi Azərbaycanda, o cümlədən Dərbənd bölgəsində 1809-cu ilin yanvar-fevral, aprel-may, oktyabr, 1810-cu ilin avqust-oktyabr, 1811-ci ilin iyul, noyabr aylarında, 1818-1820-ci illərdə rus işğalına qarşı mübarizənin gedişi və xüsusiyyətlərinin QAKA materialları əsasında ətraflı öyrənilməsi də tədqiqatın elmi yeniliklərindəndir;
- Azadlıq hərəkatında Dərbənd və ətrafının önəminin müəyyənləşdirilməsi tədqiqatın daha bir elmi yeniliyidir;
- Tədqiqatın elmi yeniliklərindən biri də ilk dəfə olaraq Dərbənd bölgəsinin müridizm hərəkatında xüsusi rola malik olmasının sübut olunmasıdır;
- Eyni zamanda tarixşünaslıqda ilk dəfə olaraq İmam Şamilin rəhbərliyi altında müstəmləkə əleyhinə hərəkat çərçivəsində Ümum-Qafqaz azadlıq mücadiləsində azərbaycanlıların fəal iştirakını bariz şəkildə təsdiqləyən ən əhəmiyyətli fakt kimi və

tərəfimizdən Tərəkəmə üsyanı adlandırılan silahlı çıxış araşdırılmışdır;

- Dərbənd şəhərinin və ətrafının Rusiya tərəfindən işğalından sonra bu bölgənin sosial və iqtisadi strukturunda baş vermiş dəyişikliklər təhlil edilərək Dərbənd bölgəsinin əhalisinin siyasi, sosial, iqtisadi və mədəni simasının dəyişilməsi qənaətinə gəlinməsi də tədqiqatın mühüm elmi yeniliklərindəndir;
- Çarizmin bu bölgədə həyata keçirdiyi mədəni-maarif, eləcə də köçürmə siyasətinin şəhərin etnik tərkibinin dəyişdirilməsi məqsədinə xidmət etməsi elmi dəlillərlə sübuta yetirilmiş və bu da tədqiqatın elmi yeniliklərindəndir.

**Tədqiqatın nəzəri və əməli əhəmiyyəti.** Müasir dövrdə Azərbaycan tarixinə hədyanlar yağdıranlara vaxtında, elmi faktlara əsaslanan tutarlı cavab verilməsi baxımından da dissertasiya işi mühüm praktik əhəmiyyət daşıyır.

“İtirilmiş torpaqlar” konsepsiyası çərçivəsində aparılan araşdırmalardan biri kimi tədqiqatın materialları Qafqaz və Azərbaycan tarixi ilə bağlı ümumiləşdirilmiş işlərin yazılmasında, ali və ümumtəhsil məktəblərində ictimai və humanitar fənlərin tədrisində istifadə oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda ölkəmizin ali məktəblərinin tarix fakültələrində mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat** AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun “Ümumi tarix” şöbəsidir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işinin ümumi həcmi 276332 işarə təşkil edir (ədəbiyyat siyahısı istisna

olunmaqla). Dissertasiyanın giriş hissəsi 30359 işarədən, birinci fəsli 132782 işarədən, ikinci fəsli 58733 işarədən, üçüncü fəsli 44423 işarədən, nəticə hissəsi 10035 işarədən ibarətdir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "*Giriş*" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi göstərilir, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, öyrənilmə səviyyəsi araşdırılır, tədqiqatın mənbə bazası təhlil edilir, əldə olunan elmi yeniliklər verilir, elmi-nəzəri və praktik əhəmiyyəti qeyd edilir.

Dissertasiyanın "*Dərbənd Rusiya İmperiyasının işğalçılıq planlarında*" adlanan I fəsli üç yarımfəsildən ibarətdir. "*Dərbənd bölgəsinin Azərbaycan tarixində yeri*" başlıqlı birinci yarımfəsildə ən qədim zamanlardan bəri ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının mühüm mərkəzlərindən biri olmuş Dərbənd bölgəsinin keçmişinə tarixi ekskurs edilir. Bu yarımfəsildə Dərbəndin XVIII əsrin sonuna, Qafqazda Rusiya işğallarının başlanmasına qədərki tarixi mərhələlər üzrə təhlil olunmuşdur. Dərbənd bölgəsinin ən qədim çağlardan müxtəlif türk tayfalarının məskunlaşma arealı olduğunu qeyd edən akademik Yaqub Mahmudov yazır ki, "Dərbənd bütün Avrasiya məkanında yayılmış qədim türk xalqlarının tarixində mühüm rol oynamışdır. Bu şəhər ümumtürk məkanını şimal torpaqları ilə cənub ərazilərini, oğuz türkləri ilə qıpçaq türklərini əlaqələndirən başlıca qapı idi"[34].

XVIII əsrdə Dərbənd siyasi təlatümlərin mərkəzində idi. Bu şəhər və ətrafı 1722-ci ildə I Pyotr tərəfindən işğal edilərək, Rusiya imperiyasının tərkibinə qatılmış, 1735-ci ildə bağlanmış Gəncə müqaviləsi ilə Səfəvi dövlətinə geri qaytarılmışdı. Daha

[34]Mahmudov Y.M. Dərbənd: tarixin qardaş xalqlara birlik əmanəti // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərlərinin Xüsusi buraxılışı, – 2012. №40, – s. 3-6

sonra Dərbənd Nadir şah imperiyasının mühüm strateji məntəqələrindən biri olmuşdu. 1747-ci ildə Nadir şahın ölümü ilə meydana çıxmış Azərbaycan xanlıqları sırasında Dərbənd xanlığı da siyasi çəkisi seçilirdi. 1759-cu ildən Dərbənd Fətəli xanın yaratdığı Şimal-Şərqi Azərbaycan dövlətinin tərkibinə qatılaraq, müəyyən müddətə bu dövlətinin paytaxtı olmuş, bu minvalla öz geosiyasi və hərbi əhəmiyyətini daha da artırmışdı

1789-cu ildə Fətəli xanın ölümündən sonra onun Dərbənd də daxil olmaqla yaratdığı Şimal-Şərqi Azərbaycan dövlətinin süquta uğraması Rusiyaya bu regiondakı çoxdan planlaşdırdığı işğalçılıq siyasətini həyata keçirmək üçün münbit şərait yaratmışdı ki, bütün bu məsələlərə dissertasiyanın I fəslinin "*Rusiyanın Cənubi Qafqaza ekspansiyası və Dərbəndin işğalı*" adlanan ikinci yarımfəslində aydınlıq gətirilir.

XVIII yüzillikdə çar Rusiyasının mütəmadi olaraq Cənubi Qafqaza, o cümlədən Azərbaycana nüfuz etmək siyasəti həmin əsrin sonu – XIX əsrin əvvəllərində özünün həlledici mərhələsinə qədəm qoydu: Rusiya imperiyası böyük geosiyasi və hərbi-strateji əhəmiyyətə malik olan regionun artıq birbaşa istilasına başladı. Azərbaycanın və ümumilikdə Qafqazın ən mühüm strateji məntəqələrindən olan, istər regionun bəlli bölgələrini nəzarətdə saxlamağa imkan verən, istərsə də xarici rəqiblərə qarşı mübarizədə zəruri dayaq nöqtəsi rolunu oynayan Dərbənd, təbii ki, çarizmin əsas hədəflərindən biri idi. Rus imperializmi Mərkəzi və Cənubi Qafqazı istila edərkən Dərbəndin strateji əhəmiyyətini daim nəzərə alırdı. Dərbənd qısa müddət ərzində iki dəfə – 1796-cı ildə və 1806-cı ildə rus komandanlığının əməliyyat hədəfinə çevrilmişdi. Əgər Dərbəndin birinci işğalı cəmi 1 il sürmüşdüsə, ikinci işğalı bu qədim və əzəli Azərbaycan şəhərinin və ətrafının birdəfəlik Rusiya tərkibinə qatılması ilə nəticələnmişdi.

Qeyd etməliyik ki, 1796-cı ildə Rusiyanın Dərbənd uğrunda əməliyyatlarını şərti olaraq 2 mərhələyə bölmək olar. Birinci mərhələ Qudoviçin Xəzəryanı sahillərinə göndərdiyi və

general-mayor İ.D. Savelyevin başçılıq etdiyi dəstənin fəaliyyəti ilə bağlıdır[35].

Qraf V.A. Zubovun Cənubi Qafqaza yürüşü 1796-ci ilin fevralından hazırlanırdı. Zubovun ekspedisiya korpusu Qızlar şəhərində formalaşırdı və təxminən 30 min nəfərlik nəzərdə tutulmuşdu. Lakin qraf korpusun tam komplektləşməsini gözləmədən, aprelin 10-da 21 topa malik 12323 nəfərlik qoşunun başında Qızlar şəhərindən Dərbəndə doğru hərəkətə keçdi[36]. Bununla da rus silahlı qüvvələrinin Dərbənd əməliyyatının ikinci mərhələsi başlayırdı. 1796-cı ilin aprelin 30-dan mayın 10-dək davam etmiş Dərbənd uğrunda vuruşma Azərbaycanın hərb tarixinin şanlı səhifələrindən biridir. 1796-cı ilin noyabrın 6-da Qafqaz ekspedisiyasının əsas təşəbbüskarı olan imperatriçə II Yekaterina vəfat etdi. Taxta çıxmış I Pavel rus qoşunlarını Cənubi Qafqazdan geri çağırdı. 1802-ci ilin sentyabrında knyaz P.D. Sisianovun Qafqazda rus qoşunlarının baş komandanı təyin olunması ilə çarizm artıq bilavasitə Azərbaycanın işğalına start verdi.

Lakin 1804-cü ilin iyununda başlamış Rusiya-İran müharibəsi rus komandanlığını Dərbəndin işğalı ilə bağlı planları bir qədər təxirə salmağa məcbur edir.

Sisianovun qətlindən sonra 1806-cı ilin iyunun 2-də general İ.V. Qudoviç yenidən Qafqazdakı rus qoşunlarının baş komandanı təyin olundu. Yeni komandanın qarşısına Sisianovun qətlində künahkar hesab olunan Hüseynqulu xanı və Şeyxəli xanı cəzalandırmaq, eləcə də Quba-Dərbənd və Bakı xanlıqlarını ilhaq etmək kimi vəzifələr qoyulmuşdu. Bu səbəbdən general Qlazenapın başçılığı altında xüsusi ekspedisiya təşkil

---

[35]Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе / т– т. III.– 1886 – с. 62; Козубский Е.И. История города Дербента... / – с. 108

[36] Козубский Е.И. История города Дербента... /–108 – с. 111; Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. / – ч 2. – с. 358-359

olunmuşdu. 1806-cı ilin iyunun 2-də Qlazenapın qoşunu hərəkətə keçdi. Dərbəndin əsilzadələri Şeyxəli xana təslim olmağı təklif etmişdilər. Lakin Şeyxəli xan təklifi rədd edərək, müqavimət göstərmək niyyətində idi. O zaman şəhərin başlıca bəylərindən biri olan Əlipənah bəy bir qrup dərbəndlinin başında Şeyxəli xanı şəhərdən qovmuş və iyunun 21-də Qlazenapın yanına nümayəndə heyəti göndərərək, təslim olduğunu bildirmişdi. Elə həmin gün general Lixaçevin komandasında kazak dəstəsi Dərbəndə daxil oldu. Ertəsi gün Qlazenap öz dəstəsi ilə Dərbəndə gəlib çıxdı. İyunun 24-də şəhər əhalisi təntənəli şəkildə and içərək, rus təbəəliyinə gətirildi[37]

1806-cı ilin sonlarına doğru rus hərbi hakimiyyəti artıq Şeyxəli xanı Quba hakimliyindən de-yure kənarlaşdırır[38]. Bulqakov tərəfindən Quba əyalətinin idarəçiliyini Qubalı Hacı bəyə tapşırmışdı. Bununla da Şeyxəli xan öz xanlığının digər hissəsinin də idarəçiliyindən kənarlaşdırılmışdı.

Dissertasiyanın I fəslinin III yarımfəsli "*Şeyxəli xanın başçılığı altında Şimal-Şərqi Azərbaycanda azadlıq hərəkatı*" adlanır və QAKA materialları əsasında Azərbaycanın sözügedən bölgəsində 1806-cı ildən 1820-ci illərin əvvəllərinədək davam etmiş müstəmləkə əleyhinə hərəkatı araşdırılır. Yarımfəsildə Şeyxəli xanın başçılıq etdiyi bu hərəkatın əsas mərhələləri müəyyənləşdirilmiş, səciyyəvi xüsusiyyətləri təhlil edilmişdir. Bu zaman qeyd edilmişdir ki, sözügedən hərəkat 1806-1811-ci illərdə intensiv partizan-reyd səciyyəli savaş şəklində, sonrakı illərdə isə diversiya xarakterli hərbi aktlar şəklində cərəyan etməklə, istər sürəkliliyi, istər coğrafi miqyası, istərsə də əhatə dairəsinə cəlb etdiyi insan resursları baxımından Rusiya işğalının baş verdiyi ilkin dönəmdə Azərbaycanda və Dağıstanda ən iri müstəmləkə əleyhinə çıxış olmuşdur. Bu

---

[37] Козубский Е.И. История города Дербента.... / – с. 131-133

[38] Предложение гр. Гудовича ген.-от-инф. Булгакову, от 16 декабря 1806 г. // АКАК, – т. 3, – с. 394-395

hərəkat 1817-ci ildə başlamış Qafqaz müharibəsinin sələfi olmaqla, öz taktiki və operativ çözüm metodlarına görə həmin müharibənin analoji gedişlərini qabaqlamışdı. O əhəmiyyətli dərəcədə Rusiya-İran savaşı ilə uzlaşırdı; məhz Qacar sarayından yardımlar onun bunca zaman davam etməsində mühüm amil olmuşdu. Elə 1813-cü ildə bu savaşın bitməsi də hərəkatın aktiv fazasının yekunlaşmasına gətirib çıxarmışdı. Şeyxəli xan hərəkatı həmçinin Azərbaycan və Dağıstan xalqlarının qardaş ülfətinin, dost birliyinin, silah yoldaşlığının, türk-islam vəhdətinin ən gözəl örnəklərini ortaya qoymuşdu.

QAKA materiallarından əxz olunmuş bilgilər üsyanın zirvə nöqtələrini müəyyənləşdirməyə imkan verir. 1809-cu ilin yanvar-fevral, aprel-may, oktyabr, 1810-cu ilin avqust-oktyabr, 1811-ci ilin iyul, noyabr ayları azadlıq hərəkatı salnaməsinin kulminasiya anları idi. Problemin ətraflı öyrənilməsi azadlıq hərəkatında Dərbənd və ətrafının önəmini müəyyənləşdirməyə imkan vermişdir. Gətirilən faktlardan bəlli olur ki, Dərbənd, habelə Marağa, Yersi, Mitəhi, Maqatir, Himpəncahlı, Cili, Darvax kəndləri əhalisi üsyançı hərəkatda fəal surətdə iştirak etmişdi. Bu kəndlərin bir çoxu rus cəza ekspedisiyaları tərəfindən dəfələrlə yandırılmış və viran edilmişdi.

Sözügedən yarımfəsildə 1813-cü ildən etibarən Şeyxəli xanın mübarizəsinin yeni səciyyə kəsb etməsinin səbəbləri də təhlil edilmiş və belə qənaətə gəlinmişdir ki, bu mübarizə əvvəlki illərdən fərqli olaraq, hərbi reydlər kimi deyil, diversiya formasında davam etmişdi. Şeyxəli xanın növbəti fəallaşması 1818-ci ilə – rus hökmranlığına qarşı Dağıstanda çıxışların yeni dalğasının baş qaldırdığı və Rusiya-Qacar münasibətlərində növbəti gərginliyin yaşandığı ilə təsadüf edirdi. 1818-ci ilin payızında Dağıstanda Rusiya tərəfdarı olaraq sadəcə Tərki şamxalı və şərti olaraq Qaraqaytaq usmisi qalmışdı. Qalan digər Dağıstan hakimləri və azad icmaları, habelə onlara qoşulmuş Şeyxəli xan güclü antirus bloku təşkil edirdi. Şeyxəli xan 1818-ci ilin oktyabrında baş vermiş və rus qoşunlarının məğlubiyyəti

ilə bitmiş məşhur Başlı döyüşündə də iştirak etmişdi. O, 1819-cu ildə Quba-Dərbənd bölgəsində yenidən müstəmləkə əleyhinə çıxışların meydana çıxmasında da fəal rol oynamışdı. 1819-cu ilin oktyabrından etibarən Rusiya ipə-sapa yatmayan Dağıstan hakimlərinə qarşı daha sərt və müntəzəm cəza ekspedisiyaları təşkil edir. 1806-1812-ci illərdə olduğu kimi, 1818-1820-ci illərdə də Şeyxəli xanın adı ümumiləşərək, Qafqazda müqavimətin rəmzinə və mücəssəməsinə çevrilmişdi. Tezliklə Dağıstanın mühüm hissəsi rus qoşunları tərəfindən tutulur, yerli hakimlər isə hakimiyyətdən kənarlaşdırılırlar. 1819-cu ilin sonlarında general Yermolovun Akuşa kəndini tutması ilə Şeyxəli xan Dağıstanın içərilərinə çəkilir, 1822-ci ilin əvvəllərində Koysubu bölgəsində vəfat edir.

Dissertasiyanın iki yarımfəsildən ibarət ikinci fəsli *"Qafqaz dağlılarının azadlıq hərəkatı və Dərbənd"* adlanır. Bu fəslin *"Qafqaz müharibəsinin başlanması. Qazı Məhəmmədin Dərbənd yürüşü"* adlı birinci yarımfəslində Rusiyanın Qafqazdakı işğaıçılıq siyasətinə qarşı başlanmış mübarizədə Dərbənd bölgəsinin yeri məsələsi və dağlıların birinci imamı Qazı Məhəmmədin 1831-ci il Dərbənd yürüşü tədqiq olunur.

XIX əsrin 20-ci illərindən başlayaraq çar Rusiyasına qarşı Şimali Qafqazda baş qaldıran müridizm hərəkatı Qazı Məhəmmədin (rus mənbələrində Qazı Molla – M.Ə.) bu hərəkatın birinci imamı seçilməsi ilə özünün fəal hərbi mərhələsinə qədəm basır. Dərbənd bölgəsinin Qafqaz dağlılarının azadlıq mücadiləsində – müridizm hərəkatında yeri və rolu probleminə dair QAKA materialları, habelə tarixi ədəbiyyatın verdiyi məlumatlara əsasən qeyd edilmişdir ki, 1820-ci illərdə Rusiya imperiyasının Qafqazda müstəmləkə siyasəti özünün yeni mərhələsinə qədəm qoymuşdu. Həmin mərhələnin fərqli cəhəti kimi diyarın istilası zamanı amansız tədbirlərin tətbiqi çıxış edirdi; belə bir siyasət təbii ki, yerli əhalidə hiddət doğurmaya bilməzdi. Dağlıların müstəmləkəçilik əleyhinə savaşının ideoloji qiyafəsi kimi islamda mistik cərəyan

olan müridizm çıxış edirdi. Dərbənd yerləşdiyi coğrafi mövqeyin geostrateji və hərbi-siyasi əhəmiyyəti baxımından Qafqaz müharibəsinin qarşı duran tərəflərinin diqqətini çəkməyə bilməzdi. Dissertasiyada 1831-ci ildə imam Qazı Məhəmmədin məşhur yürüşü zamanı Dərbənd qalası uğrunda meydana çıxmış hərbi əməliyyatlar ətraflı nəzərdən keçirilmişdir. Qaynaqların, o cümlədən Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının verdiyi məlumatlar bizə bu qənaətə gəlməyə əsas verir ki, Qazı Məhəmmədin Dərbənd yürüşünün uğursuzluğu Qafqazda o dövrdə ümummüsəlman üsyanının alovlanmasına imkan vermədi.

Qazı Məhəmmədin Dərbənd ətrafındakı uğursuzluğunun səbəbini göstərən Zisserman qeyd edir ki, "...yoldaşlarının qalaqlanmış meyitləri üzərindən düşmənin qala divarlarına dırmaşmağa adət etməyən qeyri-nizami dağlı dəstələri ilə Qazı Məhəmmədin heç bir əməliyyatı uğurla nəticələnə bilməzdi"[39]

İkinci fəslin *"Müridizm hərəkatının yeni mərhələsində Dərbənd bölgəsinin iştirakı. Tərəkəmə üsyanı"* adlı növbəti yarımfəslində 1843-1844-cü illərdə Dərbənd bölgəsinin və Tabasaranın Azərbaycan türklərinin – tərəkəmələrin yaşadığı kəndlərini əhatə etmiş və bizim tərəfimizdən Tərəkəmə üsyanı kimi səciyyələndirilmiş silahlı çıxış araşdırılır.

1843-cü ilin noyabrın 25-də alovlanan bu üsyanın səbəbi kimi Şamilin Tabasaran əhalisinə ünvanlanmış məktubları qeyd olunur. Yeri gəlmişkən, Şamilin qazavata çağırışlı məktublarını əhali arasında Tərəkəmə məntəqəsindən olan molla Həmid yaymışdı. Bu faktın özü müstəmləkə əleyhinə mübarizəyə Tərəkəmə əhalisinin nə dərəcədə cəlb olunmasından xəbər verir. Özü də molla Həmid ruslara sadiq tabasaranlılar tərəfindən saxlanılmış, lakin çox keçmədən Dərbəndin 23 km. qərbində

---

[39]Зиссерман А. *Л.*ОсадаБурной и Дербента Кази-Муллой в1831году. //Русский Вестник,–1864. – №12, – с.703

yerləşən, əhalisi əsasən azərbaycanlılardan ibarət Qimeydi kəndinin üsyan etmiş sakinləri tərəfindən azad olunmuşdu[40].

1843-1844-cü illərdə Dərbənd bölgəsinin və Tabasaranın Azərbaycan türklərinin – tərəkəmələrin yaşadığı kəndlərini əhatə etmiş Tərəkəmə üsyanı Qafqaz xalqlarının rus müstəmləkəçiliyi əleyhinə azadlıq savaşının şanlı səhifələrindən birini təşkil edir. Azadlıq mücahidlərinin bu çıxış gedişində uğur qazanacaqları təqdirdə üsyan dalğasının sürətlə Cənubi Qafqaza, ilk növbədə də Azərbaycana yayılacağını ehtimal etmək çətin deyil. Ona görə də Tərəkəmə məntəqəsinin həm Dərbəndin müdafiəsi, həm də azadlıq mübarizəsinin yeni areallara keçə biləcəyi baxımından strateji əhəmiyyətini gözəl anlayan rus ali komandanlığı bu bölgədə üsyan alovunun qısa bir zaman ərzində yatırılması üçün zəruri bütün tədbirləri görmüş, məqsədinə çatmaq üçün hətta radikal addımlara – bütöv kəndlərin yandırılmasına və sakinlərinin didərgin salınmasına belə getmişdi. Tərəkəmə üsyanı, məğlubiyyətlə bitməsinə baxmayaraq, Ümumqafqaz azadlıq mücadiləsində azərbaycanlıların fəal iştirakını bariz şəkildə təsdiqləyən ən əhəmiyyətli faktdır. Bu üsyan Qafqaz xalqlarının rus müstəmləkəçiliyi əleyhinə azadlıq savaşının şanlı səhifələrindən birini təşkil edir.

Dissertasiyanın *"Dərbənd bölgəsinin sosial-iqtisadi həyatı (XIX əsrin 60-cı illərinədək)"* adlı üçüncü fəslimiz çarizmin yerli müsəlman əhaliyə münasibətdəki müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan sosial-iqtisadi, gömrük-karantin, ərazi-inzibati islahatlarına həsr olunub.

Üçüncü fəslin *"Rusiya imperiyasının Dərbənd bölgəsindəki inzibati idarəçilik sistemi. Dərbənddə gömrük-karantin xidmətinin təşkili"* adlı ilk yarımfəslində Dərbənddə gömrük, gömrük-karantin işinin təşkili probleminin araşdırılması zamanэ belə bir

---

[40]Движение горцев Северного Кавказа в 20-50 гг. XIX века: Сборник документов / сост. В.Г.Гаджиев, Х.Х.Рамазанов. – Махачкала: Дагестанское книжное издательство. – 1959. – с. 430

nəticəyə gəlinmiєdir ki, Dərbənd gцmrьk-karantin hissəsi Rusiya imperiyasэnэn Cənubi Qafqazdakэ gцmrьk sistemində xьsusi yer tuturdu. Ona Qacar Эranэ və Osmanlэ Tьrkiyəsindən imperiyanэn daxili quberniyalarэna qaзaqmalзэlэq yolu ilə mьxtəlif mallarэn daxil olmasэnэn, eləcə də mьxtəlif yoluxucu xəstəliklərin qarюэsэnэn alэnmasэ kimi vacib funksiyalar həvalə edilmiєdi.

Bu fəslin *"Rusiya hakimiyyəti dövründə Dərbəndin sosial-iqtisadi həyatı"* adlı ikinci yarımfəslində QAKA-nın məlumatları əsasnda Dərbənd qəzasında bağçılığın, əkinçiliyin geniş yayıldığı, burada geniş sahələrdə darının saraçin növünün əkildiyi, qızıl boyanın geniş yayıldığı, onun da böyük hissəsinin Həştərxana aparıldığı bəlli olur. Rus hökuməti Dərbəndin əsas təbii ehtiyatının – duzun hasilatının təşviqi üçün müəyyən tədbirlər görmüşdü. İşğaldan sonra Dərbənd və ətraf ərazilərində yeni hakimiyyət strukturlarının təşkili araşdırılması və təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, sözügedən tədbirlər ilk növbədə tarixi, Azərbaycanın ayrılmaz hissəsi olan Dərbənd bölgəsinin yenicə təşkil olunmuş Dağıstan vilayətinin tərkibinə qatmaq və yerli əhalinin ənənəvi ictimai-siyasi həyat tərzinin Rusiya məmur-bürokratik, polis idarə sisteminə uyğunlaşdırılmaq məqsədinə xidmət etmişdir.

QAKA-da yer almış materialların öyrənilməsi belə qənaətə gəlməyə imkan verir ki, digər Azərbaycan vilayətlərində olduğu kimi, yeni gerçəkliyin təsiri ilə Dərbənd bölgəsinin də əhalisinin sosial, iqtisadi,siyasi və mədəni siması tədricən də olsa dəyişirdi. 1820-ci illərdən başlayaraq, rus hakimiyyət orqanları şəhərin abadlaşdırılması, Dərbənd limanının inşası istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirirdi. Həmçinin təhsil sahəsində yeni məktəblərin açılması müsbət hadisə idi. Lakin bununlarla yanaşı, imperiya hakimiyyət orqanları Dərbənd bölgəsinə də bəhs edilən dövrdə qeyri-azərbaycanlı, qeyri-müsəlman əhalinin məskunlaşmasını təşviq edirdilər ki, bu

da şəhərin etnik tərkibinin dəyişdirilməsi məqsədinə xidmət edirdi.

Dissertasiyanın *"Nəticə"* hissəsində tədqiqatdan irəli gələn əsas müddəalar ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. XII-XIII əsrlərdə Dərbənd tarixinə dair // Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" Beynəlxalq elmi konfransının materialları, – Bakı: – 3 – 5 may, – 2016. – I h., – s. 318-319.
2. XVIII-XIX əsrlərdə Rusiya imperiyasının işğalçılıq planlarında Dərbənd xanlığı // Ümummilli lider H. Əliyevin 93-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elm konfransının materialları, – Bakı: – 28 – 29 aprel, – 2016, – s. 1702-1703.
3. Qazı Məhəmmədin 1831-ci il Dərbənd yürüşü (Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının məlumatları əsasında) // – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, – 2016. – c. 61, – s. 58-70.
4. On the organization and operation of customs in Derbent (Based on the Acts of Caucasian Archaeographical Commission) // – Тбилиси: Кавказ и Мир (международный научный журнал), – 2017. № 22, – с. 141-147.
5. Dərbəndin işğalından sonra Rusiyanın bu bölgədə apardığı imperiya siyasəti // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2017. №2, – s. 164-170.
6. Rusiya imperiyasının Dərbənd bölgəsindəki inzibati idarəçilik siyasəti (1840-1860-cı illər) // – Bakı: Tarix və onun problemləri (nəzəri,elmi, metodik jurnal), – 2017. №1, – s. 29-35.
7. Azərbaycanlılar Ümumqafqaz azadlıq hərəkatında: tərəkəmə üsyanı // AMEA Qafqazşünaslıq İnistitutunun keçirdiyi "Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə,

müasir dövr və perspektivlər" mövzusunda Respublika Elmi konfransının materialları, – Bakı: –4 dekabr, – 2017. – s. 33-34

8. 1843-1844-cü illərdə Tərəkəmə üsyanı // – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, – 2017. – c. 68, – s. 50-67.

9. "Rusiya hakimiyyəti dövründə Dərbəndin sosial inkişafı" // – Bakı: Geostrategiya (ictimai-siyasi, elmi-populyar jurnal), – 2018. №3 (45), – s. 36-41.

10. Освободительная борьба в Северо-Восточном Азербайджане в 1812-1822 годах (по материалам "Актов Кавказской Археографической Комиссии"), // – Киев: Гилея, – 2018. – вып. 137 (10), – с. 122-126.

11. Development of Customs in Derbent in the XIX Century // – Ростов-на-Дону: Caucasian Science Bridge, – 2018. 1(2), – c. 48-56.

12. XIX əsrin I yarısında Dərbənddə həyata keçirilmiş təhsil islahatları // Al-Farabi, V Beynəlxalq sosial elmlər konfransının materialları, – Bakı: – 2019, – s. 214-217.

13. 19 Yüzyılın İlk Yarısında Derbent'in Sosyo-Politik Yaşamı (KAK'nun Verilerine Dayanarak) // – Ankara: Akademik Tarih ve Düşünce Dergisi, – 2019. 6 (2 ), – s. 1017-1027.

14. Dərbənd şəhərinin Azərbaycan tarixində yeri (IV-IX əsrlər) // İksat 4. Beynəlxalq sosial elmlər konfransının materialları, – Ərzurum: – 2019, – s. 362-366.

15. Şeyxəli xanın başçılığı altında Şimal-Şərqi Azərbaycanda azadlıq mübarizəsi (Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının məlumatları əsasında, 1806-1811-ci illər) // – Bakı: Sosial elmlər, – 2019 (1), – s. 14-23.

Dissertasiyanın müdafiəsi 21 01 2022-ci il tarixində saat 10^00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına A.A.Bakıxanov adına Tarix İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 12 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: _____________

Kağızın formatı: A5

Həcm: 46514

Tiraj: 100